# Xaqani irsi və müasir söz

## "Sözün xaqanı" romanı ətrafında elmi-ədəbi müzakirə




Azərbaycan Texniki Universitetində Azərbaycan klassik poeziyasının görkəmli nümayəndəsi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunmuş elmi-ədəbi görüş keçirildi. Tədbir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük söz ustadının yubileyinin ölkə səviyyəsində qeyd olunması ilə bağlı imzaladığı sərəncamın ruhuna uyğun olaraq təşkil edilən tədbirlər silsiləsi çərçivəsində baş tutdu.

Görüş yazıçı Sona Abbasəliqızı İsmayılovanın qələmə aldığı və dahi şairin həyat və yaradıcılığına həsr olunan "Sözün xaqanı" tarixi romanı ətrafında təşkil edilmişdi. Tədbirin təşəbbüskarı və təşkilatçısı universitetin Humanitar fənlər kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Həbib Mirzəyev olmuşdur.

Ədəbi görüşdə müəllif romanın yaranma tarixindən, Xaqani Şirvaninin zəngin irsindən və onun Azərbaycan ədəbi fikrində tutduğu mühüm mövqedən bəhs etdi. Bildirildi ki, "Sözün xaqanı" romanı təkcə tarixi şəxsiyyətin taleyini bədii şəkildə təqdim etmir, eyni zamanda XII əsrin ictimai-mənəvi mühitini, söz sənətinin qüdrətini və ədəbiyyatın əbədi dəyərini oxucuya çatdırır.

Müəllif çıxışında onu da xüsusi vurğuladı ki, Xaqani mövzusu onun yaradıcılığında daha əvvəl də yer almışdır. Belə ki, o, Xaqani Şirvaniyə həsr olunmuş poema yazmış və həmin əsər müxtəlif dövrlərdə dövri mətbuatda dəfələrlə dərc edilmiş, sonradan kitabda da yer almışdır. Müəllifin sözlərinə görə, bu poema 2018-ci ildə qələmə alınmışdır. Bu fakt göstərir ki, Xaqani mövzusuna müraciət Prezident sərəncamından sonra deyil, daha əvvəlki illərdə müəllifin yaradıcılıq marağının nəticəsi kimi meydana çıxmışdır.

Qeyd olundu ki, romanın Ön sözünün tanınmış dilçi alim, filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən yazılması əsərin elmi və ədəbi dəyərini daha da artırmışdır. Alim Ön sözündə Xaqani irsinin müasir dövrdə öyrənilməsinin və gənc nəslə çatdırılmasının vacibliyini xüsusi vurğulamışdır.

Tədbirdə filologiya üzrə fəlsəfə doktoru Müşfiq Borçalı, Xızı rayon Mikayıl Müşfiq adına tam orta məktəbin direktoru, "Tərəqqi" medalı mükafatçısı Svetlana Rüstəmova, filologiya elmləri doktoru Lütviyyə Əsgərzadə, yazıçı Tarverdi Abbasov, araşdırmaçı-yazar Əli Vəliyev, yazıçı Samir Arifoğlu Abdullayev, şair Xəzər Bəy Hikmətoğlu, şair Sevda Muradəliyeva və digərləri roman və Xaqani yaradıcılığı haqqında fikirlərini bölüşdülər.

Müzakirələr zamanı diqqətə çatdırıldı ki, "Sözün xaqanı" romanı artıq ali təhsil mühitində də maraq doğurmuşdur. Universitet dərsliyində klassik və müasir yazıçıların bədii nümunələri sırasında əsərdən qısa bir parça , üç-dörd cümləlik nümunə də təqdim edilmişdir. Bu fakt romanın yalnız bədii deyil, həm də tədris baxımından əhəmiyyətini göstərən mühüm göstərici kimi dəyərləndirildi.

Görüşdə tələbələrin fəal iştirakı və onların ədəbiyyata olan marağı tədbirə xüsusi canlılıq qatdı. Çıxış edənlər belə görüşlərin gənc nəslin milli ədəbiyyatımıza və klassik irsə marağının artmasında mühüm rol oynadığını vurğuladılar.

Sonda qeyd olundu ki, Xaqani Şirvaninin zəngin irsinin təbliği istiqamətində keçirilən bu kimi ədəbi görüşlər Azərbaycan ədəbiyyatının klassik ənənələrinin yaşadılması və gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Belə tədbirlər söz sənətinin əbədi dəyərini bir daha təsdiq edir.